**Esmira Mənsimzadə Vahid qızı** [140]

# UĞURSUZ AİLƏLƏRDƏ FORMALAŞAN YENİYETMƏLƏRİN SOSİAL PROBLEMLƏRİ VƏ ARADAN QALDIRILMASI İMKANLARI

Ailə cəmiyyətin əsas sosial qurumlarından biri olub və bir neçə funksiyaları yerinə yetirir. Ailə öz lazimi və təməl funksiyalarını yerinə yetirə bilmədikdə artıq burada funksionallıqdan danışmaq qeyri-mümkün olur. Disfunksional ailələrin çoxunun taleyi də boşanma ilə bitir. Bu proses isə cəmiyyət üçün uğursuz ailə formalaşdırır. Yeniyetməlik yaşı ən çətin və böhranlı dövlərdən biridir. Belə bir çətin dövrdə ailənin dağılması həmin yeniyetmə üçün yeni sosial və psixoloji problemlər yaradır.

Təkvalideynli uğursuz ailələrdə əsasən də analar yeniyetmələrin inkişafında ortaya çıxacaq problem və maneələrdən çəkinirlər. Belə halda onlar daha çox maddi və sosial çətinliklərin meydana gəlməsinə görə narahatlıq keçirirlər. Ən əsası da bu məsələni təkbaşına həll edə bilməmək qorxusu onları bürüyür.

Ailənin artıq uğursuz ailəyə çevrilməsinin ilk zamanlarında yeniyetmələrdə ayrı yaşadığı valideynini bir daha görə bilməmək qorxular ortaya çıxır və bu da onlarda özünü tənha hiss etmək problemini yaradır. Əsasən də 11-15 yaş aralığında olan yeniyetmələrdə bu özünü daha çox görsədir. Onlar aqressiv və əsəbi olurlar. Bu da onların demək olar ki, bütün həyatlarına öz təsirini göstərir.

Uğursuz ailələrdən olan yeniyetmələrin əsas çətinliklərin də biri də əvvəllər hər iki valideynləri ilə birgə etdikləri fəaliyyətləri artıq ya ata, ya da ana ilə edə bilmələridir. Bu da özünü daha çox öz həmyaşıdlarının öz ailələri ilə keçirdikləri vaxtı gördükdə baş verir. Belə yeniyetmələrin çox hissəsi ailənin yenidən bir araya gəlməsi ümidi ilə yaşayır.

Sosial problem dedikdə maddi cəhətdən yoxsulluq və kasıblıqdan meydana gələn gündəlik ehtiyaclar nəzərdə tutulmur. Bu davamlı şəkildə özünü göstərən əskiklikdir. Sosial çətinliklər yaşayan hər bir yeniyetmə bunu öz həyat prosesində daimi qənaətcil olmaq, hətta ən adi şeylərdə ilk olaraqpulu israf etməməyi düşünür.

İlk baxışda özünü ədalət kimi görsədən bir məsələ də həçmin bu uğursuz ailələrdə ortaya çıxan iqtisadi çətinliyi ortadan qaldırmaq üçün dövlət tərəfindən sosial yardımın göstərilməsidir. Lakin belə bir hal baş verə bilər ki, bu sosial yardım cəmiyyətdə birmənalı şəkildə qarşılanmaz. Bu da o deməkdir ki, buna güvənib boşanan ailələrin sayı artar. Bu da daha çox uğursuz ailənin yaranması deməkdir. Bu problem həm Şərqdə, həm də Qərbdə hələ də bu məsələlərə görə həll edilməmiş olaraq qalır. Uğursuz bir ailə müasir ailənin əsas sosial demoqrafik növlərindən biridir[6, s. 155].

Yeniyetməlik dövrü ən "kritik" dövr sayılır. Bu zaman yeniyetmə artıq yeni bir inkişaf yoluna qədəm qoyur. Cəmiyyətdə müstəqil yer tutmaq, yeni funksiya və rollara yiyələnmək, ictimai keyfiyyətlər əldə etmək kimi proseslər bu dövrdə ortaya çıxır. Yeniyetməlik dövrü təkcə fiziki inkişafi deyil, özündə emosional cəhətləri də xarakterizə edir. Bu da həmin yeniyetmələrin "risk qrupu uşaqları" sırasına daxil olmaq "şansını" daha da artırır. Bir çox faktlar göstərir ki, uğursuz ailələrdə yetkinlik yaşına çatmayanlarla düzgün qurulmamış tərbiyə işi onların gələcək həyatlarında mənəvi dəyərlərini itirməsi ilə nəticələnir.

Sosial problemlərin yaranması özündə bir neçə amilləri birləşdirir: Birincisi, hələ ailənin uğursuz ailəyə keçid dövründə baş verən problemlər, ikinci artıq nəticədə yaranan şüurlu nəzarət və davranış mexanizmlərinin pozulmasıdır. Hər bir sosial problemli yeniyetmə sosial əhəmiyyətini itirən insanlar kateqoriyasına daxil olur.

Disfunksional ailələrdə formalaşan yeniyetmlər funksional ailələrdə formalaşan yeniyetmlərə nisbətdə deviant davranışlara daha çox meyllidirlər. Bunaalkoqolizmə və narkotikə aludəlik, erkən yaşda cinayət və qanun pozuntuları daxildir. Bunlar yalnız bir dövr üçün təhlükəli hesab edilmir. Bu onların gələcək həyatlarında dünyagörüşü və şüurlarının formalaşmasında əsas təhlükədir.

Yeniyetmələrin deviant davranışlı şəxsə çevrilməsi çox mürəkkəb və gec görünən bir prosesdir. Buna görə də uğursuz ailələrdə olan valideynlər bu problemin fərqinə gec bələd olurlar.

Uğursuz ailərdə formalaşan "böhranlı" yeniyetmələri 3 istiqamətdə qruplaşdırmaq olar:

**1.** Fiziki və cinsi inkişafda öz yaşıdlarından geri qalan yeniyetmələrdir. Bu zaman onlarda qeyr-mümkün görünən maraqlar, istəklər və özlərinə maneə ola bilməmək kimi mənfi keyfiyyətlər özünü görsədir.

**2.** Bu qrupa cinsi inkişafları sürətlənmiş, aqressiyaları çox tez artan yeniyetmələr daxildir. Onlarda ailə və məktəb tərəfindən qoyulan qadağalara ciddi şəkildə əsəbi reaksiyalar yaranır.

**3.** Bu qrup yeniyetmələrdə özbaşınalıq, alkoqoliklik, səbirsizlik halları görünür. Belə yeniyetmələr formalaşan ailələrin çox hissəsi düzgün həyat sürməyənlər kateqoriyasına aiddirlər. Göstərilən hər üç qrupa daxil olan yeniyetmələr "risk" altındadır.

Qloballaşan, kəskin şəkildə dəyişikliklər baş verən cəmiyyətimizdə ,təəssüf ki, yan təsirlər özünü uğursuz ailələrin sayının artmasına gətirib çıxarır. Bunun əsas səbəblərindən biri də boşanma və natamam ailə anlayışının cəmiyyətdə normallaşdırılmasıdır. Belə olan halda uğursuz ailələrdə formalaşan yeniyetmələrdə ortaya çıxan sosial problemlər ikinci plana atılmışdır. Hətta çox vaxt valideynlər də bu problemin varlığını çox gec dərk edir. Göstərilən problem bütün səviyyələrdə həll olunmalıdır, digər halda isə bir çox yeniyetmə artıq cəmiyyətdən təcrid olacaqdır. Bu məsələ daimi olaraq müəllimlər, valideynlər və sosial işçilərin diqqət mərkəzində olmalıdır.

[140] Bakı Dövlət Universiteti. esmiramansimzade@gmail.com

Dövlətin bu sahədə apardığı siyasət isə çox əhəmiyyətlidir. Əsas üstünlük dövlətin gənc şəxsiyyətin formalaşması, bu prosesdə ortaya çıxan maddi və mənəvi zərərlərin ortadan qaldırılması üçün optimal, əlverişli sosial müdafiəsiyasəti keçirməsidir. "Sosail müdafiə" proqramını hazırlayarkən yeniyetmələrin cəmiyyətin əsas subyekti kimi dəyərləndirilməsi vacibdir, çünki onlar indiki cəmiyyətin gələcəyidir.

Uğurusuz ailələrdə olan yeniyetmələrin probelmlərinin həllində əsas istiqamət risk altındakı ailələrə tibbi, psixoloji, sosial və hüquqi olaraq yardımların göstərilməsi, devaint davranışların qarşısının alınması və sosial reabilitasiya məqsəd olaraq götürülmüşdür. Uğursuz ailələrdən olan yeniyetmələrin deviant davranışının sosial profilaktikası ilə məşğul olan uşaq və ailələrin sosial müdafiəsi şöbələri bir neçə funksiyaları yerinə yetirirlər:

**1.** Rayonda, şəhərdə yaşayan əhalinin real ehtiyaclarını müəyyənləşdirmək və sosial infrasturukturu ona uyğunlaşdırmaq;

**2.** Ailənin, uşaqların və yeniyetmələrin asudə vaxtlarını düzgün təşkil etmə qaydaları haqqında sosil-pedaqoji yerli orqanlara təkliflər hazrılayıb vermək;

**3.** Yeniyetmələrin sosial müdafiəsi üçün digər şöbələrin (tibb, hüquqi orqanlar) fəaliyyətinə nəzarət etmək və işlərini əlaqələndirmək;

**4.** Sosial problemləri olan yeniyetmələri tez bir zamanda müəyyən etmək və profilaktik tədbirlər həyata keçirmək, lazım gəldikdə digər orqanlarla əsaslı fəaliyyəti birləşdirmək;

Reabilitasiya proqramları müəllim, valideyn, psixoloq və pedaqoqların bir yerdə məsləhətləşmələrini əhatə edir. Bu vaxt həm qrup, həm də fərdi məşğələlər təşkil olunur. Bu üsulun əsas üstünlüyü ondadır ki, eyni zamanda bir neçə mütəxəssis fəaliyyət göstərir. Bir çox xarici ölkələrdə uğursuz ailələr və yeniyetmələrdə bu çox uğurlu nəticələr vermişdir. Burada əsas müsbət xüsusiyyətlərdən biri də etiraf və problemlər anonim şəkildə təqdim olunur. Belə mərkəzlərin əsas məqsədi dövlət və cəmiyyət tərəfindən qoyulan sosial norma və qaydalara uyğun şəkildə fəaliyyət göstərməkdir. Yeniyetmə şəxsiyyəti üçün müasir tələblərə cavab verməlidir. Bu cür sosial reabilitasiya mərkəzlərinin çoxalması və fəaliyyətini müsbət yöndə davam etdirməsi gələcək üçün əsaslı addımlardan biridir.

Uğursuz ailələrdən olan yeniyetmələrlə reabilitasiya prosesində yüksək ixtisaslı pedaqoq, psixloq və hüquqşünaslar fəaliyyət göstərir. Burada xidmət göstərən pedaqoq və hüquqşünasların çox hissəsi həm də psixoloji təhsil almışdır.Əsas əhəmiyyətli məsələrdən biri də yeniyetmələrin yaşayış yerlərində aparılan işlərdir, çünki mühit şəxsiyyətin inkişafın təsir edən əsas amillərdən biridir. Bir çox şəhərlərdə zərərli klublar bağlanmış, yerdə qalanlara isə yeniyetmələrin girişinə qadağa qoyulmuşdur. Belə fəaliyyət həm də rayon və kənd yerlərində aparılmalıdır. Mahiyyət etibarilə yeniyetmələrdə baş verən sosial problemlər eynidir, bu da həmin yaş dövrünün tipik xüsusiyyətlərindən irəli gəlir.Yeniyetməlik yaşı şagird şəxsiyyətinin formalaşmasının ən mürəkkəb dövrlərindən biridir[3, s. 255].

Uğursuz ailələrdə formalaşan yeniyetmlər üçün gənclər mərkəzi və sosial xidmət müəssisəsi yaratmaq və onun fəaliyyətini optimal stimullaşdırmaq lazımdır. Əsas dinamika problemin həlli səviyyəsində məqsədləri ortaya qoymaq və bu istiqamətdə hərəkət etməkdir. Belə mərkəzlər bir neçə prinsipə əsaslanaraq fəaliyyətlərini davam etdirməlidirlər:

- Yeniyetmələrin deviant davranışlarının qarşısın alınması üçün müxtəli sosial-psixoloji və pedaoqji metodların öyrənilib hazırlanması, istifadə olunması;
- Hər hansı başa verə biləcək hüquq pozuntusunun erkən bilinməsi və buna uyğun olaraq sosial-psixoloji tədbirlərin görülməsi;
- Yaşayış yerlərində ünsiyyət klublarının yaradılması, yeniyetmələr üçün sosiallaşma mühitinin təşkil olunması;

Bunlarla yanaşı, maddi vəziyyəti yaxşı olmayan ailələrdən olan sosial problemli yeniyetmələrin sayı da artmaqdadır. Bu da öz növbəsində antisosial davranışlı yeniyetmələrin yaranmasına gətirib çıxarır. Bununla əlaqədar olan qurumların da yaranması və fəaliyyət göstərməsi zərurət halına çevrilmişdir.

Bir çox ölkələrdə belə qurumlar minimum səviyyədə olsa da yeniyetmələrə dəstək olur. Bu dəstəyin maddi və yaxud mənəvi baxımdan olması həmin qurumun fəaliyyətindən asılıdır. Buraya hüquq-mühafizə orqanları daxildir. Onların xidmətləri hərtərəfli təşkil olunduqda əsaslı və müsbət dəyişikliklərin cəmiyyətdə baş verdiyini görmək olur. Ancaq bir çox yerdə o cümlədən Azərbaycanda da aşağıda göstərilənləri özündə birləşdirən mərkəzlərin yaradılmasına ehtiyac var:

- Uğursuz ailələrə və yeniyetmələrə praktik sahədə xidmət göstərən sosial yardım mərkəzləri;
- Emosional və psixoloji böhranların qarşısının alınmasına, ixtilafların aradan qaldırılmasına yeniyetmələrə kömək edən psixoloji və pedaqoji yardım mərkəzi;
- Təcili telefon xətti ("yardım xətti");
- Çətin vəziyyətə düşən yeniyetmələr üçün sosial realbilitasiya mərkəzləri;
- Yetkinlik yaşına çatmayan uşaqlar üçün sosial və hüquqi yardım xidməti;
- Küçədə yaşayan uşaqlara və qaçaqlara yardım, sosial sığınacaq yeri;

Yuxarıda göstərilənlərə əsasən deyə bilərik ki, dövlətin və ya cəmiyyətin uğursuz ailələrdən olan yeniyetmələrlə və uşaqlarla münasibətdə bütün bu proqramların, sosial yardım və xidmət yerlərinin işlərinin düzgün, əsaslı surətdə qurulması əlverişli yaşayış mühitinin yaranması qənaətinin özündə doğrulda bilər. Əhalinin bu kateqoriyasına xüsusi diqqətin göstərilməsi və inkişafın təmin edilməsinəinki valideynlərin ümumilikdə bütün cəmiyyətin əsas borcudur. Çünki yeniyetmələr bu günün sabahı, hər biri bir nəslin davamçılarıdır.

## Ədəbiyyat


1. Bayramov Ə.S., Əli Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı 2002, s.620
2. Ebru Opçin "Tek ebeveynli ailelerde çocuk yoksunluğu", Aralık-2018,S.124
3. Əlizadə H., Mahmudova R. "Sosial pedaqogika". Bakı: "Bakı Universiteti", 2013, 368 s.
4. Əliyev R."Şəxsiyyət və onun formalaşması: sosial-pedaqojiməsələlər".Azərbaycan məktəbi, 2015 N2
5. İsmixanov M., Əliyeva S. "Sosial pedaqogika". Bakı: ADPU, 2013, 304 s.
6. İmamverdiyeva N., Mirzəliyeva N. "Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri". Bakı: "Müəllim", 2022, 207 s.



***Açar sözlər:****yeniyetməlik dövrü, sosial problemlər, uğursuz ailə, sosial xidmət*

***Ключевые слова:****подростковый возраст, социальные проблемы, неблагополучная семья, социальная служба*

***Key words:****adolescence, social problems, failed family, social service*



***Xülasə***

Yeniyetməlik dövrü ən "çətin" dövrlərdən hesab olunur. Bu dövrdə yeniyetmələrin zehni, sosial və fiziki inkişaflarında əsaslı dəyişikliklər özünü göstərir. Uğursuz ailələrdə formalaşan yeniyetmələrdə isə bu dəyişikliklər həm problemli, həm də mənfi nəticələnə bilər. Belə ailələrdə böyüyən yeniyetmələrdə əsas problemlərdən biri də sosial baxımdan özünü göstərir. Bu problem təkcə valideynlərə deyil, cəmiyyətə də öz təsirini göstərir. Onlarda baş verən deviant davranışlar, cəmiyyətdə öz yerini tuta bilməmək kimi ideyalar baş qaldırır. Bu gənc nəslimiz üçün gözlə görünən ciddi bir təhlükədir. Belə sosial problemləri aradan qaldırmaq üçün ailə, cəmiyyət və dövlət bir yerdə işləməlidir. Lazimi tədbirlər həyata keçirilib, ən az ziyanla ortadan qaldırmaq lazımdır.


### СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ ПОДРОСТКОВ, СФОРМИРОВАВШИХСЯ В НЕБЛАГОПОЛУЧНЫХ СЕМЬЯХ, И ВОЗМОЖНОСТИ ИХ УСТРАНЕНИЯ


***Резюме***

Подростковый возраст считается одним из самых «трудных» периодов. В этот период очевидны коренные изменения в психическом, социальном и физическом развитии подростков. Для подростков, сформировавшихся в неблагополучных семьях, эти изменения могут быть как проблемными, так и негативными. Одна из основных проблем подростков, растущих в таких семьях, проявляется и с социальной точки зрения. Эта проблема затрагивает не только родителей, но и общество. У них возникают девиантное поведение и идеи о невозможности занять свое место в обществе. Это серьезная угроза для нашего молодого поколения. Для преодоления подобных социальных проблем семья, общество и государство должны работать сообща. Необходимые меры приняты, ее следует устранить с наименьшим ущербом.


### SOCIAL PROBLEMS OF ADOLESCENTS FORMED IN FAILED FAMILIES AND POSSIBILITIES FOR THEIR ELIMINATION


***Summary***

Adolescence is considered one of the most "difficult" periods. During this period, fundamental changes in the mental, social and physical development of adolescents are evident. In adolescents who grow up in unsuccessful families, these changes can have both problematic and negative consequences. One of the main problems in adolescents growing up in such families is also manifested from a social perspective. This problem affects not only parents, but also society. Deviant behavior occurs in them, ideas such as not being able to take their place in society arise. This is a serious and visible threat to our young generation. In order to eliminate such social problems, the family, society and the state must work together. Necessary measures must be taken and eliminated with the least damage.



***RƏYÇİ: dos. E.Vəliyeva***